# Xidmətin səviyyəsi yüksəlir

Qəbələ poçtamtının kollektivi cari ili uğurla başa çatdırmağa çalışır. Rabitə xidmətini günü-gündən yaxşılaşdıran poçtamtın işçiləri 9 ay ərzində proqnoz tapşırıqlarını keçən ilin müvafiq dövrü ilə müqayisədə 11100 manat artıq yerinə yetirmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun olaraq yeni-yeni obyektlər tikilir, mövcud binalar bərpa edilir, müasir xidmət növləri tətbiq olunur.

Rayonda 29 poçt şöbəsi fəaliyyət göstərir. Son iki il ərzində mərkəzi poçt binası əsaslı surətdə yenidən qurulub. Poçt şöbələrinin texniki avadanlıqlarla təminatı yaxşılaşdırılmışdır. Bu ilin 9 ayı ərzində 30 ədəd «Domen» kompyuter dəsti, 7 ədəd faks aparatı, 11 ədəd surətçıxarma aparatı və digər texniki, nəqliyyat vasitələri ilə əhaliyə xidmət göstərilmişdir. Eyni zamanda poçt göndərişlərinin həcmi artırılmış, bağlamaların, məktubların, pul köçürmələrinin sayı xeyli çoxalmışdır. Hazırda poçtamtda əhaliyə 20 növdən artıq xidmət göstərilir. Burada daha bir sıra yeni xidmət növləri həyata keçirilir. Qaz, işıq, su pulları poçt vasitəsilə yığılır. Ona görə də işin həcmi getdikcə genişlənir.

Dövlət proqramına uyğun olaraq gələcəkdə Məlikli, Zalam, Yenikənd, Bunud, Bayramkoxalı, Zarağan və Böyük Əmili kəndlərində poçtamtın şöbələrinə təzə binaların tikilməsi üçün bütün sənədləşmə işləri aparılaraq «Azərpoçt» MMC-yə göndərilmişdir.

# Qazla ehtiyatlı davranın

Havaların soyuması əhalinin qaza ehtiyacını daha da artırır. Əhali qazdan istifadə edərkən olduqca ehtiyatlı olmalı, təhlükəsizlik qaydalarını daim gözləməlidir.

Kustar, əldədüzəlmə peçlərdən istifadə olunması, havaçəkən boruların düzgün yerləşdirilməməsi, rezin borulardan istifadə bir çox hallarda bədbəxt hadisələrin baş verməsinə gətirib çıxarır.

Satış məntəqələrindən alınan qaz sobalarının müvafiq sənədləri olmalı, alıcı isə ondan istifadə qaydalarını bilməlidir. Yaxşı olar ki, bütün bunları həmin sahə üzrə ixtisaslaşmış mütəxəssislər həyata keçirsinlər. Mütəxəssis sobanı quraşdırarkən tüstü borusunun hündürlüyünü və hansı istiqamətdə bayıra çıxacağını yaxşı bilir. Standarta uyğun qaz cihazları seçmək daha məqsədəmüqabildir. Qaz borusunun dəmir materialdan olması vacibdir.

Dəm qazı insan orqanizminə əsasən nəfəsalma zamanı daxil olur. Güclü zəhərləyici xassəyə malik olan dəm qazı iysiz və rəngsiz olduğundan insan onu hiss etmir. Bu, qapalı şəraitdə daha təhlükəlidir.

Dəm qazı ilə zəhərlənmə zamanı insanda baş ağrıları, baş gicəllənmələri, ürək bulanması, qusma, qulaq batması, qəfil əzələ boşalması, şüurun dumanlanması və digər əlamətlər baş verir. Yüksək dozalı dəm qazı ilə zəhərlənmə isə huşun itməsi, hətta ölümlə nəticələnə bilər.

Avtomobilin qarajda qapalı şəraitdə 10 dəqiqə fasiləsiz işləməsi də zəhərlənməyə gətirib çıxarır.

Vanna və hamam otaqlarında nəfəsliyin olmaması, qızdırıcının qapağının açıq saxlanması da dəm qazı ilə zəhərlənməyə səbəb ola bilər.

Otaqda qaz iyi hiss etdikdə dərhal qazın verilməsi dayandırılmalı, otağın pəncərələri açılaraq havası dəyişdirilməli, bu barədə qəza-təmir xidmətinə məlumat verilməlidir. Mövcud nasazlıq aradan qaldırılana qədər otaqda siqaret çəkmək. alışqan yandırmaq olmaz. Yaxşı olar ki, otağa daxil olarkən içərinin havasının təmizliyinə tam əminlik yarandıqdan sonra işıqlar yandırılsın və ya alışdırıcı vasitələrdən istifadə edilsin. Siz bütün bunlara tam əməl etməklə həyatınızın və əmlakınızın etibarlı təminatçısı olarsınız.

**Rayon qaz istismarı idarəsi.**

*Futbol*

# «Qəbələ» xalını artırdı

Topaz Premyer Liqasında XIV turunu «Qəbələ» çiskinli və yağmurlu hava şəraitində keçirirdi. Havanın məşəqqətliyi stadiona azarkeş axınını söndürə bilməmişdi. Hamı doğma komandadan qələbə gözləyirdi.

AzALla oyun demək olar ki, bərabər səviyyədə keçirdi. İkinci hissənin başlanğıcında «Qəbələ»nin baş məşqçisi Yuri Syomin birdən-birə iki dəyişiklik etdi. Bu da





komandaya uğur gətirdi. İkinci hissənin 30-cu dəqiqəsində braziliyalı legioner Leonardo da Silva dəqiq zərbə ilə hesabı açdı. Oyunun baş hakimi Fariz Yusifovun silsilə «sarı vərəqə»lər seriyası isə heç nəyi dəyişmədi. «Qəbələ» qazandığı mühüm əhəmiyyətli 3 xalla yarış cədvəlindəki mövqeyini daha da möhkəmləndirdi. Komandamız topladığı 26 xalla çempion «Neftçi»yə bir qədər də yaxınlaşdı.

Turun digər görüşləri isə belə nəticələnmişdi: «Bakı»—«Xəzər Lənkəran»—3:0, «Sumqayıt»—«Simurq»—0:1, «İnter»—«Neftçi»—3:1, «Qarabağ»—«Rəvan»—0:0.

**Miri RƏHİMOV.**

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Ağsaqqallar Şurası Böyük Vətən Müharibəsi veteranı **MƏHƏMMƏDƏLİ XƏLİLOVUN** vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Bunud kənd tam orta məktəbinin müəllim kollektivi İsayevlər ailəsinə, əzizləri **FİRDOVSİ ABDULƏZİZOVUN** vaxtsfız vəfatı münasibətilə kədərləndiklərini bildirir və dərin hüznllə başsağlığı verir.

Səhrab, Azad, Ağakişi və Ramiz yaxın qohumları **FİRDOVSİNİN** vaxtsız vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

# Bunları bilmək maraqlıdır

*Ayaqqabı kremi quruduqda bir qaba qaynar su töküb krem qabının onun içərisinə qoyun. İstinin təsirindən yumşalmağa başlayanda üstünə azacıq skipidar əlavə edib möhkəm qarışdırın. Bundan sonra krem istifadəyə tam yararlı olacaqdır.

*Evi ağardandan sonra qapı-pəncərəyə süzülüb düşmüş ləkələri bir hissə su və iki hissə sirkə qarışığı ilə asanlıqla silib təmizləmək olar.

*Balıq konservini açan kimi şüşə, yaxud saxsı qaba töküb saxlamaq lazımdır. Onu soyuducuda belə qapağı açıq dəmir qabda qoymaq insan həyatı üçün təhlükəlidir.

*Balıq iyinin xoş olmamasını hamı yaxşı bilir. Bu qoxunu yox etmək üçün balığı bişirməmişdən əvvəl üstünə su ilə qarışdırılmış sirkə, yaxud da limon sıxmaq lazımdır.

*Dibi yanmış qazanı çay sodası ilə asanlıqla təmizləmək olur.Bunun üçün qazana su töküb üzərinə 1—2 qaşıq soda əlavə edərək qaynatmaq kifayətdir.

*Ərp bağlamış çaydan və ya samovarı soda məhlulu ilə asanlıqla təmizləmək olur.


# Oxucuların nəzərinə!

## «Qəbələ» qəzetinə

**2014 -cü il üçün abunə yazılışı davam edir.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

**Abunə «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.**

**Hesab № 33080019444900218149. VÖEN 4400103601.**

Ünvan: Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.

Telefonlar: (024)20 5-19-14, 5-15-56, mob. (050) 328-11-42.



Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi A. C. Cəlilov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir. Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.